***ALİ MƏCLİSİN İCLASI***

*7 noyabr 2025-ci il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*

*birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının üçüncü iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 43 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 43 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli həmkarlar, gündəliyə keçməzdən əvvəl qeyd etmək istəyirəm ki, sabah Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbənin 5-ci ildönümüdür.

5 il bundan öncə, noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 günlük Vətən müharibəsində qələbə qazanmış, daha sonra antiterror əməliyyatları nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir.

Hörmətli sessiya iştirakçıları!

Xahiş edirəm, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bötövlüyümüz uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

*(Hamı ayağa qalxır.)*

**Sədrlik edən.** Allah rəhmət eləsin!

Hörmətli həmkarlar, iclasın gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı.

2. “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş).

3. “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş).

4. Cari məsələlər.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Gündəlik qəbul edilir.

Hörmətli deputatlar!

Gündəlikdə duran birinci məsələ 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatıdır.

Məsələ ilə əlaqədar çıxış etmək istəyən varmı?

Buyurun, Gülşad xanım!

**G.Rüstəmova.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

İlk növbədə, hər birinizi salamlayıram!

Bu gün 44 günlük Şanlı Zəfərimizin 5-ci ildönümüdür. Bu Zəfər bizim üçün sadəcə qələbə deyil, həm də canla, göz yaşı və ana həsrəti ilə yazılmış bir dastandır. Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin müdrik rəhbərliyi və dəmir iradəsi, dövlət-xalq-ordu birliyi sayəsində qazanılmış şanlı Qələbəmiz qürur və şərəf tariximizdir.

O, millətini, ordusunu bir amal uğrunda birləşdirdi. Müzəffər Ali Baş Komandan şəhid analarının göz yaşına dəyər verən, qazilərimizin ağrısını öz ağrısı bilən Liderdir. Bu gün mən bir şəhid anası kimi həm qürurluyam, həm də həsrət doluyam. Mənim övladım Vətən uğrunda can verən minlərlə igid oğul kimi bu torpağa həyatını qurban verdi. Onların hər biri bu zəfərin əbədi qəhrəmanlarıdır.

Qazilərimiz Vətənin canlı abidələridir. Onların hər yarası Vətən tarixinin şərəf səhifəsidir. Biz analar onlarla fəxr edirik, onların sağlığı, gücü bizim ümidimizdir.

Əziz iclas iştirakçıları!

Biz şəhid anaları üçün ən böyük təsəlli övladlarımızın adının əbədiləşdirilməsi, onların unudulmaması, xatirələrinin yaşadılmasıdır. Məktəblərə, küçələrə, mədəniyyət ocaqlarına onların adları verildikcə biz əmin oluruq ki, oğullarımız yaşayır, Vətən üçün nəfəs almağa davam edirlər. Bizim övladlarımız torpağı azad etdi, biz isə onların adlarını yaşadaraq, qəhrəmanlıq dolu tariximizi gələcək nəsillərə aşılayaraq borcumuzu ödəyəcəyik.

Əlavə etmək istəyirəm ki, 5 noyabr tarixində Bakı şəhərində keçirilən “Mənim oğlum qəhrəmandır” layihəsi çərçivəsində tarixi Zəfərin 5 illiyinə həsr edilmiş Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan tədbirdə iştirak etdik. Tədbirdə Azərbaycanın müxtəlif bölgələrindən olan yüzlərlə şəhid anası bir araya toplandı. O anlarda həm qürur, həm həsrət, həm də Vətən sevgisinin birliyi hiss olunurdu. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva ilə olan səmimi görüşümüz biz şəhid anaları üçün dərin mənəvi qürur və təsəlli mənbəyi oldu. Bu görüş bir daha göstərdi ki, dövlətimiz və xalqımız şəhidlərimizin ruhunu uca tutur, onların əmanəti olan biz şəhid analarını hər zaman diqqət və qayğı ilə əhatə edir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı, şəhid ailələrinə tükənməz səbr versin! Prezidentimizə uzun ömür və güc versin ki, Azərbaycana daim Zəfər salnaməsini yaşatsın.

Eşq olsun Azərbaycanımıza! Eşq olsun rəşadətli Ordumuza! Eşq olsun Şəhidlərimizə! Qazilərimizə!

Qarabağ Azərbaycandır!

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Gülşad xanım!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Emin müəllim!

**E.Şıxəliyev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

İlk olaraq hamınızı salamlayıram. Artıq 5-ci ildir ki, biz möhtəşəm Zəfərimizin ildönümünü qeyd edirik və onu da bildirim ki, bu tarixi Zəfərin ardıcıllıqla ildönümlərini bir-birindən fərqli hisslərlə və duyğularla, eyni zamanda fərqli reallıqda qeyd edirik.

Azərbaycan elə bir tarixi Zəfərə, nailiyyətə imza atıb ki, regionda geosiyasi mənzərəni və reallıqları elə bir ustalıqla dəyişib ki, bir azərbaycanlı olaraq sevinməmək əldə deyil. İstər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda, yəni harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bu tarixi zəfəri, bu tarixi günü böyük bir qürurla və fəxarətlə qeyd edir. Amma gəlinən bu nöqtə, varılan bu Zəfər heç də asan olmayıb. Azərbaycan bu yolda ağır çətinliklərlə üzləşib, keşməkeşli yollar keçib.

200 il bundan öncə strateji üstünlük əldə etmək üçün Çar Rusiyası tərəfindən ermənilər bizim tarixi ərazilərimizə yerləşdirildi. O vaxtdan xalqımızın başının üstünü qara buludlar aldı. Öz geosiyasi maraqlarından çıxış edərək regionda söz sahibi olmaq istəyən müəyyən böyük güclərin təlimatlarından ilham alaraq güclü şəkildə təşkilatlandırılan, təlimatlandırılan və silahlandırılan ermənilər o tarixlərdən başlayaraq sahibləri qarşısında öz vəzifələrini layiqincə yerinə yetirdilər, fantaziya üzərində qurulan ideologiyalarını reallaşdırmaq üçün xalqımıza qarşı cinayətlərə başladılar.

XX əsrin əvvəllərində – 1905-1906-cı illərdə, 1918-1920-ci illərdə soyqırımı cinayətləri törətdilər. Sovetlər dövründə hissə-hissə torpaqlarımızı böldülər, Ermənistana peşkəş çəkdilər, deportasiyalar dövründə xalqımızı öz ata-baba yurdlarından zorla didərgin saldılar.

XX əsrin sonlarında ərazi iddialarının və deportasiyaların növbəti dalğası başladı. SSRİ-nin süqutundan sonra bir daha müasir silahlarla silahlandırılan ermənilər növbəti cinayətlərə əl atdılar və torpaqlarımızı işğal etdilər. Ərazilərimizin 20 faizi işğal altına düşdü. BMT Təhlükəsizlik Şurası erməni güclərinin geri çəkilməsini özündə ehtiva edən 4 qətnamə qəbul etsə də, Ermənistan tərəfi buna məhəl qoymadı. Münaqişənin nizamlanması ilə bağlı yaradılan ATƏT-in Minsk Qrupunun fəaliyyəti də səmərəsiz oldu və bu qrupun həmsədrləri olan ABŞ, Rusiya və Çin - hər biri məlum olduğu kimi ayrı-ayrılıqda böyük güc mərkəzlərini təmsil edirdilər və bu münaqişənin həlli istiqamətində, əlbəttə ki, müəyyən gücə sahib idilər. Amma təəssüf ki, onlar münaqişənin həlli mexanizmləri üzərində düşünmür, onların idarə olunması ilə məşğul olmurdular.

Əlbəttə ki, hər zaman gəlib-gedirdilər. Haqlı olaraq onların bu addımları həm dövlət səviyyəsində, həm də ictimaiyyətdə turistik fəaliyyət kimi xarekterizə olunurdu. Ümummilli Liderimiz dahi Heydər Əliyevin çox məhşur bir kəlamı vardır. O deyirdi ki, “Bizim etməli olduğumuz bir işi, başqası gəlib bizim yerimizə etməz! Ümid yalnız özümüzədir!”. Həqiqətən hər bir dövlətin və millətin özünün etməli olduğu bir işi başqası onun yerinə etməz. O şərtlə edər ki, həmin dövlət digər dövlətin forpostuna, təsir dairəsinə çevrilə bilər, amma şükürlər olsun ki, Azərbaycan bunu beynəlxalq hüquq çərçivəsində öz gücü ilə həll etdi.

Artıq Azərbaycanın səbr kasası daşmışdı. Ermənistan hər dəfə təxribatlara əl atırdı. Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrupu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəməmiş, üstəlik atəşkəs rejimini də sıx-sıx pozmuşdur. Nəticədə baş vermiş bu müharibə Qarabağ münaqişəsinin dondurulmamış olduğunu ortaya qoydu və 2020-ci ilin sentyabr ayında Ermənistanın Azərbaycan torpaqlarına gerçəkləşdirdiyi hücum ani müharibənin başlanmasının işarəsi oldu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ermənistanı ağır məğlubiyyətə uğratdı.

Bəli, 8 Noyabr – möhtəşəm Zəfər! Bu tarixdə Azərbaycan möhtəşəm bir tarixi Zəfərə imza atdı. Bu Zəfər təkcə hərbi qələbə deyil, tarixi ədalətin bərpası, uzun illər davam edən milli mübarizənin məntiqi yekunu idi. Eyni zamanda 30 ilə yaxın işğal dövründə yığılıb qalan ədalət tələbinin reallaşması idi.

Bildiyimiz kimi, 1992-ci ildə Şuşanın itirilməsi Azərbaycan xalqı üçün ağır psixoloji zərbə olmuşdu. Bu zərbənin bərpası üçün gərəkli olan əsas amil güclü dövlət, peşəkar ordu və siyasi iradə idi. Məhz bu amillərin sintezi nəticəsində Azərbaycan xalqı öz tarixi ədalətini bərpa etdi.

Bir haşiyə də çıxmaq istərdim ki, 8 noyabrda Azərbaycan 30 ilə yaxın bir müddət ərzində o dövrdən yığılıb qalmış tarixi ədalətini bərpa etdi. Antiterror əməliyyatlarında isə ağır olsa da qeyd etmək lazımdır ki, 200 illik alnımızdakı ləkə tamamilə silindi və əsrlərdir mövcud olan erməni separatizminin kökü tamamilə kəsildi.

Bəli, əsrlər idi, çünki ora separatizm yuvası idi. Əlbəttə ki, bunlar çox möhtəşəm tarixi zəfərlərdir.

Azərbaycan ordusu hərb meydanında tarix yazdı, öz gücünü göstərdi, torpaqlarımızı işğaldan azad etdi. Bu məsələlərdə liderlik amili, siyasi iradə əlbəttə ki, həlledici rol oynayır. Ali Baş Komandanın liderlik konsepsiyası həm cəbhədə, həm də diplomatik müstəvidə özünü göstərdi. Onun beynəlxalq səviyyədə, eləcə də xarici jurnalistlərin sualları qarşısındakı çıxışlarını hamımız bilirik. Eyni zamanda tarixi Zəfərimizə aparan yolda cənab Prezidentin siyasi iradəsi xalqda böyük ruh yüksəkliyi yaratdı.

Azərbaycan artıq regionda yeni geosiyasi reallıqlar yaradıb, beynəlxalq imici güclənib, dünyada etibarlı tərəfdaş kimi tanınır. Azərbaycan yeni dünya nizamında öz ağırlığı və çəkisi olan bir dövlətə çevrilib.

Bu möhtəşəm Zəfəri bizə yaşatdıqlarına görə Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevə, rəşadətli Ordumuza, əsgərlərimizə öz minnətdarlığımızı bildiririk. Vətən uğrunda canlarını verən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayırıq.

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

Sizlərin hər birini bu möhtəşəm tarixi Zəfər münasibətilə ürəkdən təbrik edirəm, eyni zamanda 9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə təbrik edirəm!

Bayramlarımız mübarək olsun!

Bir məsələni də qeyd edim ki, 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatının qəbul edilməsini dəstəkləyirik.

**Sədrlik edən.** Sağ olun, Emin müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Məmməd müəllim!

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputat həmkarlar və iclas iştirakçıları!

Hər birinizi salamlayıram!

Bu gün Azərbaycan xalqı Vətən müharibəsində qazanılmış şanlı Qələbəmizin 5-ci ildönümünü - Zəfər Gününü böyük coşqu, sevinc və qürur hissi ilə qeyd edir. Azərbaycanın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan Qarabağ Zəfəri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qazanılıb.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. Müzəffər Azərbaycan Ordusu 28 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi.

Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 28 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da "ağ bayraq" qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi. Noyabrın 10-da Ermənistan "ağ bayraq" qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı.

8 noyabr 2020-ci il Ali Baş Komandan və şanlı Azərbaycan əsgərinin yazdığı görkəmli tarixdir. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Azərbaycan Qarabağa qovuşdu, tarixi Zəfərə imza atdı, ordumuz şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə, digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, Zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimizdir.

Ölkə rəhbərimiz, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox!".

Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur, xalqının Prezidenti olmaq! Budur, Liderlik missiyası! Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni əbədiləşdirdi. Bu Zəfərin formulu isə Müzəffər Ali Baş Komandan-Xalq birliyi və Azərbaycan əsgəridir.

8 Noyabr - Zəfər Günün mübarək, Azərbaycan!

Son olaraq mən də 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatını dəstəkləyirəm.

**Sədrlik edən.** Sağ olun!

Gündəlikdə olan məsələ ilə əlaqədar başqa çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı hazırlanmışdır. Bəyanatı səsləndirməsi üçün söz deputat Əziz Qasımova verilir.

Buyurun, Əziz müəllim!

**Ə.Qasımov,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədr müavini.*

8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 30 ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarımızı azad edərək qazandığı tarixi Zəfərin beşinci ildönümünü böyük təntənə ilə qeyd edirik.

Ümummilli Liderimiz Heydər Əliyev deyirdi ki, **“Torpaqlarımızın azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, müstəqil Azərbaycanın gələcək xoşbəxt günü gəlib çatacaqdır”.**

Bu gün biz məhz həmin günləri yaşayırıq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin yolunu uğurla davam etdirərək tarixi Zəfər qazanıb, Azərbaycanı qüdrətli dövlətə çevirib.

Bu bir həqiqətdir ki, tarixi Zəfəri şərtləndirən əsas amillərdən biri də Azərbaycanda Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən milli inkişaf strategiyası olmuşdur. Aparılan İqtisadi islahatlar, idarəetmənin təkmilləşdirilməsi, vətəndaş məmnunluğuna nail olunması və qanunvericilik bazasının zənginləşdirilməsi təkmil siyasi sistem və dövlət idarəçilik mexanizmi formalaşdırmış, əhali rifahı yüksəlmişdir. Eyni zamanda sosial-iqtisadi inkişafla paralel olaraq milli ruhda sağlam gənc nəslin yetişdirilməsi başlıca istiqamət kimi götürülmüş, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının, döyüş qabiliyyətinin və peşəkarlığının davamlı artırılması güclü müdafiə potensialı yaratmış, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət kursu isə ölkəmizin dünya birliyindəki mövqeyini möhkəmləndirmişdir. Bütün bunlar da xalqı milli amallar və məqsədlər naminə birləşdirmiş, Xalq-Lider birliyi təmin edilmiş, Azərbaycan həm döyüş meydanında, həm də siyasi-diplomatik müstəvidə böyük Qələbə qazanmışdır.

Münaqişə dövründə Azərbaycan dəfələrlə beynəlxalq hüquq normaları çərçivəsində məsələnin sülh və danışıqlar yolu ilə həllinə, işğal olunmuş torpaqlarımızın geri qaytarılmasına çalışmışdır. Lakin 2020-ci il sentyabrın 27-də Ermənistan növbəti hərbi əməliyyatlara başlamış, Azərbaycan ordusunun mövqelərinə və mülki yaşayış sahələrinə hücumlar etmişdir. Buna cavab olaraq Azərbaycan BMT Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək əks-hücum əməliyyatı keçirmiş, 44 gün davam edən Vətən müharibəsində torpaqlarımız işğaldan azad edilmiş, hərb tariximizə şanlı səhifələr yazılmışdır.

8 Noyabr – Zəfər Günü uzun illər işğalçılıq, etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalmış Azərbaycan xalqının əzminin və milli birliyinin, beynəlxalq hüququn aliliyinin və ədalətin təntənəsidir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edərək regionda yeni geostrateji reallıqlar yaratmışdır. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri isə dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması ilə nəticələnmişdir. Bununla da cənab İlham Əliyev ən mühüm missiyaya - Ata vəsiyyətinə əməl etmiş, Ümummilli Liderimiz Heydər Əliyevin arzularını reallaşdırmışdır.

Tarixi Qələbəmizi təmin edən bir çox faktorlar var. Bunlar sırasında şəhidlərimizin qəhrəmanlığı, xalqımızın birliyi, malik olduğumuz güclü ordu və dayanıqlı iqtisadiyyat xüsusi qeyd olunmalıdır. Lakin bütün bunları özündə cəmləşdirən əsas bir faktor vardır ki, bu olmadan qələbini təmin etmək mümkün deyildi. Sözsüz ki, söhbət cənab İlham Əliyev şəxsiyyətindən, Onun Vətəninə və xalqına bağlılığından, Liderlik məharətindən və qətiyyətindən gedir. Məhz bu qətiyyət və siyasi iradə Qələbə ilə yanaşı, böyük Qayıdışın da təməlini qoymuşdur. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yenidən qurulur.

Azərbaycanın qazandığı tarixi Zəfərin regionda yaratdığı yeni reallıqlar - davamlı sülh, sabitlik, quruculuq və təhlükəsizlik beynəlxalq səviyyədə qəbul olunur və dəstəklənir. Dünyanın qüdrətli dövlətləri və təşkilatları ilə əlaqələr daha da möhkəmlənib. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş və söz sahibidir. Xüsusilə də 2025-ci ilin avqustunda ölkə başçısının Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində Vaşinqtonda Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamə imzalanması yeni dövrün təhlükəsizlik komponentinin təsdiqi və sülh istiqamətində ciddi addımdır. Bu mənada Vaşinqton razılaşması, əslində Azərbaycanın Vətən müharibəsindən sonra başladığı prosesin – sülh müqaviləsi ideyasının məntiqi davamı olmaqla yanaşı, həm də ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun bariz göstəricisidir.

Sözsüz ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan sülh prosesi və bunun məntiqi davamı olacaq Zəngəzur dəhlizi yalnız Cənubi Qafqaz üçün deyil, həm də qlobal miqyasda yeni münasibətlər sisteminin prioritetlərini müəyyənləşdirir. Zəngəzur dəhlizi iqtisadi, nəqliyyat və enerji əlaqələrinin, yeni kommunikasiya xətlərinin formalaşmasına və regionun dayanıqlı inkişafına xidmət edəcəkdir. Bu dəhliz həmçinin "Orta dəhliz" adlandırılan beynəlxalq nəqliyyat marşrutunun əsas həlqələrindən birinə çevrilərək qitələr arasında daha qısa, təhlükəsiz və səmərəli logistika xətti formalaşdıracaq, Naxçıvanın ölkəmizin digər bölgələri ilə birbaşa quru əlaqəsinin bərpası muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni mərhələnin əsasını qoyacaqdır. Məhz ölkə Prezidentinin diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı islahatlar da gələcək inkişaf perspektivlərinə hədəflənib.

Bütün bu proseslərdə - istər tarixi Zəfərin qazanılmasında, istərsə də ölkəmizin hərtərəfli tərəqqisində və böyük Qayıdış strategiyasının reallaşmasında, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi qeyd olunmalıdır.

Azərbaycan xalqının çoxəsrlik tarixinin ən şərəfli səhifəsi olan Zəfər Günü milli birliyimizin simvolu, ən əsası isə qəhrəman oğullarımızın Vətən və xalq qarşısındakı fədakarlığının nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Zəfər Gününün tarixi əhəmiyyətini qeyd edir, əlamətdar tarixi gün ərəfəsində şəhidlərimizin əziz xatirəsinə dərin hörmət və ehtiramını bildirir, qazilərimizə şəfa diləyir, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı Zəfər Gününün beşinci ildönümü münasibəti ilə təbrik edir, ölkə Prezidentinin uzaqgörən daxili və xarici siyasətini bundan sonra da daim dəstəkləyəcəyini bəyan edir!

*(Alqışlar.)*

**Sədrlik edən.** Sağ olun, Əziz müəllim!

Deputatlardan Bəyanatın mətninə, oradakı ifadələrə düzəlişi və ya əlavəsi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Qeyd edim ki, Bəyanatın təsdiq edilməsi ilə əlaqədar qərar layihəsi də hazırlanmışdır.

“8 noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

8 noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı təsdiq edilsin.

Deputatlardan kim Bəyanatın oxunan qaydada qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputat qərar layihəsinin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, Bəyanat qəbul edildi.

Hörmətli deputatlar!

Gündəlikdə duran ikinci məsələ “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi Ali Məclisin 17 oktyabr 2025-ci il tarixli plenar iclasında müzakirə edilmiş, təklif və iradlar nəzərə alınmaqla, onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsində 1 dəyişikliyin edilməsi nəzərdə tutulur.

Qanun layihəsinin hazırlanmasında məqsəd Ali Məclis deputatlarının parlamentdaxili məsuliyyətini müəyyən edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 51.5-ci maddəsində nəzərdə tutulan 1 il ərzində Ali Məclis deputatının Ali Məclisin iclaslarında üzrsüz səbəbə görə iştirak etməmə sayının il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bütün iclaslarının sayına adekvatlığının təmin edilməsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin hazırkı redaksiyasında, “Ali Məclisin sədri Ali Məclisin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Ali Məclisin 10 iclasında üzrsüz səbəbdən iştirak etməyən Ali Məclisin deputatı barəsində İntizam komissiyasına təqdimatla müraciət edir” - müddəası mövcuddur.

Dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 51.5-ci maddəsində “10” rəqəmləri “5” rəqəmi ilə əvəz edilir.

Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 51.5-ci maddəsində qeyd edilən üzrsüz səbəbdən il ərzində iclaslarda iştirak etməmə sayı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin il ərzində keçirdiyi iclasların sayı arasında fərqin kəskin olmaması Nizamnamənin qeyd edilən maddəsinin realizəsini mümkünsüz edir.

2023-2025-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin keçirdiyi iclasların sayına baxıldığı zaman dəyişikliyin nə qədər zəruri olduğu bir daha görünür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü ildə 12, 2024-cü ildə 19, 2025-ci ilin birinci yarımilində isə 10 iclası keçirilmişdir.

Göründüyü kimi, həm normanın realizəsinin təmin edilməsi baxımından, həm də parlamentdaxili intizamın gücləndirilməsi baxımından dəyişiklik olduqca əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.6-cı maddəsinə əsasən birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklif və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir.

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Hüquq siyasəti komitəsinin 4 noyabr 2025-ci il tarixdə keçirilən iclasında müzakirə olunmuşdur. Müzakirə zamanı qanun layihəsinə hər hansı dəyişiklik təklif edilməmişdir. Hüquq siyasəti komitəsinin protokol qaydasında qəbul edilmiş qərarı ilə qanun layihəsi ikinci oxunuşa təqdim edilməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul edilməsi ilə bağlı keçirilən səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və ya səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşda qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı Komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputat qanun layihəsinin ikinci oxunuşda qəbulunun lehinə səs vermiş, əleyhinə və ya səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda müzakirəsidir.

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi hazırlanmış və deputatlara paylanılmışdır.

Layihə Hüquq siyasəti komitəsinin 4 noyabr 2025-ci il tarixli iclasında komitənin sədr, müavin və üzvlərinin, həmçinin Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi ilə "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 3 maddəsində dəyişikliyin edilməsi nəzərdə tutulur.

Dəyişikliklərə əsasən 2 maddənin 2 bəndinin ləğv edilməsi, bir maddəyə yeni bəndin əlavə edilməsi təklif edilir.

Qanun layihəsinin hazırlanmasında məqsəd Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin strukturuna daxil olan normativ xarakterli aktlar qəbul etmək səlahiyyəti olan Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının ləğv edilməsi, eləcə də normativ hüquqi aktın qüvvədən düşmüş hesab edilməsi ilə bağlı qərar olacağı təqdirdə normativ hüquqi aktı ləğv edəcək subyektin müəyyən edilməsi ilə bağlı mövcud boşluğun aradan qaldırılmasıdır.

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi 4 noyabr 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitənin iclasında qanun layihəsi Hüquq siyasəti komitəsi üzvlərinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının iştirakı ilə müzakirə edilmişdir. Komitə iclasında qanun layihəsi barədə ətraflı məlumat verilmiş, layihə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy qəbul edilmişdir. Qəbul edilmiş rəyə əsasən "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin gündəliyinə daxil edilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrinin struktrunda dəyişiklik edilməsi, normativ hüquqi aktın qüvvəsinin itirilməsi ilə bağlı yeni müddəaların əlavə olunması məqsədi ilə hazırlanmışdır.

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 4 noyabr 2025-ci il tarixli iclasında komitənin sədr, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə geniş müzakirə olunmuşdur. Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir.

Deputatlardan kim "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşu ilə bağlı keçirilən səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran dördüncü məsələ cari məsələlərlə bağlıdır.

Müzakirəyə keçməzdən əvvəl bildirmək istəyirəm ki, Ali Məclisin ötən plenar iclasında deputat Canməmməd Canməmmədovun vətəndaş müraciətlərinə dair deputatlar tərəfindən dövlət orqanlarına göndərilən sorğularla bağlı müraciəti Ali Məclisin Aparatı tərəfindən araşdırılmış, aidiyyəti qurumlarla əlaqələndirmə aparılaraq məsələlər müsbət həllini tapmışdır.

Deputatlardan cari məsələlərlə əlaqədar çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli həmkarlar!

Diqqətinizə çatdırım ki, "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisə daxil olmuşdur. Hesab edirəm ki, büdcə layihəsi komitə və plenar iclaslarda səmərəli müzakirə olunacaqdır.

Deputatlardan xahiş olunur ki, büdcə layihəsinin müzakirəsində aktiv iştirak etsinlər.

Hörmətli deputatlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!